**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MİLLİ MƏDƏNİYYƏT AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA MÜHÜM AMİL KİMİ

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Elm sahəsi: siyasi elmlər

İddiaçı: **Aytəkin Əlimərdan qızı Hüseynova**

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Siyasi nəzəriyyələr şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, professor əvəzi
**Adil Mirabdulla oğlu Mirabdullayev**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Aynur Ramiz qızı Fərmanova**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Eldar Arif oğlu Cəfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik
**Ürxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, professor əvəzi
**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, professor əvəzi
**Hicran Kamran qızı Hüseynova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan mədəni irsin nadir sahibi və daşıyıcısıdır. Çağdaş dünya birliyində dövlətin fəaliyyəti beynəlxalq arenada bir tərəfdən, milli mədəniyyətin inkişaf mənbəyi kimi, digər tərəfdən isə onun son nəticəsi kimi çıxış edir. Dövlətlərin milli mədəniyyətləri arasındakı fərqlər həm daxili siyasətə, həm də onun beynəlxalq münasibətlərinə öz təsirini göstərərək, onların hər birini əlahiddə edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli mədəniyyətin inkişafında yeni dövrün əsasını qoymuş, onun siyasi proseslərə təsirini gücləndirmişdir. Bugünkü gündə Azərbaycanın milli mədəniyyəti dövlətin milli maraqlarının formalaşmasında əhəmiyyətli amildir və onun xarici siyasətinin istiqamətlərini təyin edir. Mövzunun aktuallığını daha ətraflı aşağıdakı tezislər formasında ifadə etmək olar:

- Milli mədəniyyət dövlətin milli siyasətinin qurulması və aparılmasının, dövlətin beynəlxalq imicinin təşəkkül tapmasının və milli rolunun formalaşmasının əsasıdır. Milli mədəniyyətin ölçmələri onun indikatorları rolunu oynayır, bunlar hər bir dövlət üçün fərdi şəkildə müəyyənləşir və aktorun müəyyən meyil və reaksiyalarının izahı və təhlili üçün istifadə edilə bilər.
- Sosial konstruktivizm mövqeyindən baxılan milli mədəniyyət - beynəlxalq arenada aktorların fəaliyyətlərinin və hərəkətlərinin əsasını təşkil edir. Beynəlxalq münasibətlərin mövcud konsepsiya və nəzəriyyələri mədəniyyətin beynəlxalq münasibətlərə yalnız dolayı təsirini qeyd edir. Ona görə də təqdim edilən dissertasiyada çoxsaylı mövcud nəzəriyyə və paradiqmalar sırasında sosial konstruktivizm konsepsiyasından istifadə edilmişdir. Bu konsepsiya mədəniyyətə beynəlxalq münasibətlərin gerçəkliyinin yaradılmasında əsas motivlərdən biri kimi baxır.
- Mədəniyyət dövlətə identiklik verir ki, onun da prizması vasitəsilə dövlətin maraqları formalaşır. Dövlətin maraqları isə xarici siyasət fəaliyyətinin əsasını təşkil edir. Çox zaman dövlətlər digər aktorlarla qarşılıqlı əlaqədə olaraq, mədəniyyətin bu təsirini hiss etmirlər, lakin hər halda onun motivləri üzrə hərəkət edirlər.

- Milli mədəniyyət dövlətlərin bir-birilə qarşılıqlı təsirində nəzərə alınır, lakin onların hər biri bu qarşılıqlı əlaqəni müxtəlif cür təfsir edir. Hər hansı dövlətin mədəni xüsusiyyətləri onun beynəlxalq münasibətlərin digər aktorları ilə münasibətlərinin formalaşmasında mədəni çərçivələr, özünəməxsus karkas yaradır.

- Azərbaycan milli mədəniyyəti həmçinin xarici siyasətin bir hissəsidir, çünki dövlətin mədəni siyasətini formalaşdırır. Bütövlükdə, dövlətin milli mədəniyyəti və onun beynəlxalq münasibətləri dövlət “brendinqi”nin formalaşması, başqa sözlə, beynəlxalq arenada imicin formalaşması konsepsiyasında bir-biri ilə sıx şəkildə qovuşmuşdur. Bu cür təsir dövlətin milli rolu konsepsiyasının formalaşmasında aşkarlanır.

- Beynəlxalq aləmdə Azərbaycan Respublikasının brendinqi və imici mövzusu 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə xüsusilə aktualdır. Azərbaycan müsbət obraz və imicin formalaşması üçün bir sıra alətlərdən istifadə edir ki, bunlar da milli eynilik, milli rol və ölkənin milli brendidir. Brendinq strategiya və texnikalarının rolu dövlətin imicinə və reputasiyasına yaxşı təsir edir və müsbət şəkildə əks olunur. “Yumşaq güc” və publik diplomatiya alətlərini tətbiq edən Azərbaycan xaricdə dövlətin müsbət imicini formalaşdıran pozitiv obraz və reputasiyanı yaratmaqdadır.

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev başda olmaqla dövlətimizin bütün potensialını milli-mədəni dəyərlərin inkişafı üçün işə saldığı müasir şəraitdə hazırkı tədqiqat işi beynəlxalq münasibətlərdə milli mədəniyyətin rolunun öyrənilməsi üçün nəzəri konteksti və konseptual bazanı təhlil etməyə kömək edir.

Azərbaycan milli mədəniyyətinin təhlili problemləri Azərbaycanın tanınmış alimləri və görkəmli xadimləri tərəfindən tədqiq edilmişdir. Onlar milli mədəniyyətin və dövlətin beynəlxalq münasibətlərinin qarşılıqlı əlaqəsinin çoxsaylı aspektlərini nəzərdən keçirmişlər. Onlardan akademik R. Mehdiyevin, tarixçi professor, kulturoloq F. Məmmədovun, Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfiri F. Qurbanovun, Kembric Universitetinin siyasi elmlər doktoru M.İsmayılovun, politoloq E.Nuriyevin tədqiqatları xüsusilə fərqlənir[1].

---

[1] Мехтиев Р. Современный Азербайджан как воплощение национальной идеи “Бакинский рабочий” 2011, 19 мая №90, С.18; Мамедов Ф. Т. Культурология

Milli ideologiya və xarici siyasətin tədqiq edilməsi sahəsində İ.Məmmədzadə, Ə.Abbasov, N.Abbasov, F.Qasımzadə, İ.Hüseynov, İ.Paşazadənin[2] əsərləri, eləcə də A.Şükürov, A.Haqverdiyev və N.Cəfərovun kulturologiya üzrə tanınmış əsəri xüsusi diqqətə layiqdir[3]. M.Süleymanlı, S.Məmmədova, B.Qubatoğlu, Ə.Tağıyev və F.Sultanovun da əsərləri milli mədəniyyətin tətbiqinin praktiki və prakseoloji aspektlərinin araşdırılmasına mühüm töhfə vermişdir[4]. Onların işlədikləri yanaşma və nəzəriyyələr mədəniyyətin tədqiq edilməsində mühüm rol oynamışdır.

Əcnəbi akademik ədəbiyyatda mədəniyyətin və dövlətin beynəlxalq münasibətlərinin nisbəti 1950-ci illərin axırlarından etibarən aktiv şəkildə araşdırılmağa başlanılmışdır və bu sahədə nəzəri modellərin əksəriyyəti milli mədəniyyətin dövlətin xarici siyasi vektorlarının formalaşmasına təsir göstərməsi prosesi də daxil olmaqla, müxtəlif nəzəri məktəblər çərçivəsində təmsil olunmuşdur.

---

(Вопросы теории и истории). Учеб. пособие, Баку, "Абилов, Зейналов и сыновья", 2002, 534 с.; Gurbanov F. All change in Azerbaijan Long before Eurovision, The Guardian, 21 May 2011, 22 June 2012; Nuriyev E. Azerbaijan's foreign policy strategy and national security concerns http://www.ca-c.org/journal/2003/journal_eng/cac-04/02.nureng.shtml

[2] Məmmədzadə İ. Mədəniyyətlər dialoqu və dialoq mədəniyyəti, "Milli Zəka", iyin-avqust 2014, 1 (s. 9-12); Abbasov Ə. Milli ideologiya birləşdirici məna-simvol kimi. (səh.182-193,) Milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar mövzusunda keçirilən konfransın materialları. Bakı, "Elm və təhsil", 2012, 752 s.; Abbasov N.Ə. elmi red. M. A. Süleymanlı. Mədəniyyət siyasəti və mənəvi dəyərlər, Bakı, "Təknur" MMC, 2009, 444 s; Qasımzadə F. Bir daha kulturologiya məsələlərinə dair "Simurq" kulturoloji jurnal, 2008, № 1, s. 29-35" kulturoloji jurnal, 2008, № 1, s. Hüseynov İ.H., Abbasov N. Milli ideyaların inkişafı naminə. "Mədənimaarif", 2004, № 5, s. 9-12; Paşazadə İ. Mədəni irsə sədaqətlə. "Mütərcim jurnalı", 2000, № 2, s.82- 84.

[3] Şükürov A., Cəfərov N. və Haqverdiyev A. Kulturologiya (Dərslik). Bakı, "Aqiloğlu", 2003, 274 s.

[4] Süleymanlı M.A. Müasir dövrdə mədəniyyət müəssisələrinin idarə olunması və iqtisadiyyatı (metodik tövsiyə). Bakı, "ADMİU", 1996, 60 s.; Məmmədova S. Mədəniyyətşunaslıq. Bakı, "Kooperasiya" nəşriyyatı, 2001, 202 s.; Qubatoğlu B. Mədəniyyət tarixi. İki cilddə, I cild. Bakı: "Nasir", 2002, 338 s.; Tağıyev Ə., Əliyev Q. Kulturologiya (Dərs vəsaiti). Bakı, "Təbib", 1997, 96 s.; Sultanov F.Yaranış. Mədəniyyət dünyası, VII buraxılış, Bakı, "ADMİU", 2003, s.382-390.

Qərb məktəbi Amerika alimləri - Harvard Universitetinin professoru Ç.Klakxon, həmçinin tanınmış Amerika antropoloqu A.Kreberlə təmsil olunmuşdur. Onlar öz əsərlərində müxtəlif beynəlxalq sahələr çərçivəsində bu terminin fərqli təriflərini nəzərdən keçirmişlər[5]. Amerika alimləri L.Falkovski, M.Brexer, L.Pay mədəniyyətin qərar qəbul edən liderin təfəkkürünün koqnitiv funksiyasına göstərdiyi təsirdən bəhs etmişlər[6]. Antropoloqlar və kulturoloqlar D.Kuşman və S.Kinq, politoloq P.Kamak və siyasətçi L.Farrel mədəniyyətin münaqişələrin həlli texnikasına təsirini qeyd etmişlər[7]. Nəzəriyyəçilər Q.Almond və S.Verba mədəniyyətə dövlətin xarici siyasətinə təsir göstərən müstəqil dəyişən kimi baxmışlar[8]. Amerika tədqiqatçıları K.Holsti, O.Holsti və R.Ceppersen mədəniyyəti beynəlxalq həyatın müəyyən situasiyalarına millətin təsir və reaksiyalar dəsti (hərəkət şablonları) kimi təyin etmişlər[9]. Məsələn, R.Ceppersendə

---

[5] Kroeber A. L., Kluckhohn Charles F. (1952) Culture: a critical review of concepts and definitions. Papers, 47 (1). Cambridge, Mass.: Peabody Museum of Archaeology and Ethnology pp. 223

[6] Falkowski L. (1978) Presidents, Secretaries of State, and Crises in U.S. Foreign Relations: A Model and Predictive Analysis. Boulder, CO: Westview pp. 151-178; Brecher M., Steinberg B., Stein J. (1969) "A framework for research on foreign policy behavior." The Journal of Conflict Resolution, Vol. 13, No.1 (Mar. 1969), Published by: Sage Publications, Inc. pp. 75-101; Pye L. Political culture / International encyclopedia of social sciences. N.Y., 1968, vol. 12

[7] Cushman D.P. and S.S. King Communication Organizational Culture from book Communicating Organizational Change: A Management Perspective edited by D.P. Cushman and S.S. King; State University of New York Press, Albany 1995 p. 340; Cammack P. Smart Power and US Leadership, 49 Parallel, An interdisciplinary Journal of North American Studies, Issue 22, Autumn 2008 Myth & Legacy pp.5-20; Farrell R.B. (ed.). Approaches to Comparative and International Politics. Evanston, Ill.: Northwestern University Press, 1966 p.368

[8] Алмонд Г., Верба С. Гражданская культура и стабильность демократии. Полис, "Политические исследования", 1992, № 4, 122 c.

[9] Holsti K. J. National Role Conceptions in the Study of Foreign Policy / K. J. Holsti // International Studies Quarterly. – 1970. – Vol. 14, No. 3. – pp. 233–309; Holsti O.R. The Belief System and National Images: A Case Study // Journal of Conflict Resolution. 1962. Vol. 6. pp. 244–252; Jepperson R., Wendt A., Katzenstein P. The culture of National Security pp.33-75 in the book of Katzenstein Norms, Identity and Culture in National Security p.562

bu konsepsiya öz təsbitini dövlətin milli maraqları, təhlükəsizliyi və kənardan reaksiyalara cavab olaraq onun hərəkətləri ilə bağlı konsept şəklində almışdır.

XX əsrin ortalarında beynəlxalq münasibətlərin əsas konsepsiyalarından savayı, bir çox digərləri də meydana çıxmışdır. Onlardan A.Vendtin sosial konstruktivizm metanəzəriyyəsi fərqlənir. T.Hopfun fikrincə, o, "mədəniyyəti beynəlxalq münasibətlərin ağuşuna qaytarmağı vəd etmişdir"[10]. Mədəniyyətin dövlətin xarici siyasət kursunun və prioritetlərin dəyişilməsinə təsiri problemi üzrə çoxsaylı əsərlər və nəzəriyyələr nəzərdən keçirilmiş və öyrənilmişdir – C.Leqro, Ç.Herman, M.Herman[11].

Bundan başqa, milli mədəniyyətin beynəlxalq münasibətlərə təsir aspektinə və dövlətin xarici siyasətində mədəniyyətin roluna İsrail politologiya məktəbinin alimləri, politologiya professorları V.Hadson, P.Katsenşteynin tədqiqatları böyük təsir göstərmişdir[12]. Onlar konstruktivizmə elə bir konsepsiya kimi baxmışlar ki, o, mədəniyyəti hər hansı situasiyaya təsir etmək iqtidarında olan və həmçinin fəaliyyət və hərəkətlər strategiyasını müəyyənləşdirə bilən elementlərə malik sistem kimi təqdim edir. B.Şaffer, Y.Lapid və F.Kratoçvilin nəzəri şərtlərin araşdırılması sahəsindəki əsərlərində milli-mədəni komponentin strukturunun dövlətin beynəlxalq münasibətlərinə təsiri araşdırılmışdır[13].

Asiya məktəbi əsasən, Çin alimləri qrupu – Şanxay Beynəlxalq Tədqiqatlar İnstitutundan J.Maji, L.Jinşenq, Q.Yaqinq və S.Suyuan

---

[10] Hopf T. The promise of constructivism, International Security Vol 23, N1, 1998, summer, The MIT Press, p.174

[11] Legro J. Culture and Preferences in the International Cooperation Two-Step, American Political Science Review, Vol.90, No 1 (March 1996) pp. 118-137; Hermann Ch.F. Changing course: When governments choose to redirect foreign policy, International Studies Quarterly 34: pp. 3-21; Hermann M. G. Leader personality and foreign policy behavior, in J. N. Rosenau (ed.) Comparing Foreign Policies. New York: John Wiley pp. 201-234

[12] Hudson V. M. https://www.litres.ru/valerie-m-hudson/foreign-policy-analysis-2/

[13] Schaffer B. Culture and Foreign Politics from the book edited by Brenda Schaffer, P. Katzenstein and J. Lapida Limits of culture p. 350

tərəfindən təmsil olunmuşdur. Onlar mədəniyyət komponentinin beynəlxalq münasibətlər nəzəriyyəsində olan rolunun azalmasını tənqid etmişlər[14]. Məhz onlar bütün məlum konsepsiyaları mədəniyyətin dövlətin xarici siyasətinə təsirinin hamı tərəfindən tanınmış modellərinə toplamışlar.

“Milli mədəniyyət” anlayışının daha ətraflı və yerində verilən xüsusiyyətləri Avropa tədqiqatçılar məktəbi tərəfindən verilmişdir. Belə ki, məsələn, milli mədəniyyətin ölçülməsi və mədəniyyət kodları Q.Hofstede, M.Minkov və M.Bondun əsərlərində verilmişdir[15]. Problemin nəzəri hissəsinin təhlili zamanı konstruktivist yanaşma və struktur-funksional metoddan istifadə edilmişdir, formulun işlənilməsi zamanı riyazi universalilərin sosial elmə ekstrapolyasiya metodu tətbiq edilmişdir. Konstruktivizmə həsr edilmiş elmi ədəbiyyatdan konstruktivizmin araşdırılması ilə məşğul olan və ideyaları hazırkı tədqiqatda təhlil və istifadə olunan A.Vendt, N.Onuf, T.Hopf və İ.Vallerstaynın əsərlərini xüsusi qeyd etmək lazımdır[16].

Mövzunun praktiki tərəfdən araşdırılması gedişində müqayisəli təhlil və sosioloji sorğu metodlarından istifadə olunmuşdur. Tədqiqatda tətbiq edilən əsas metodoloji prinsiplər qismində nəzəri mühakimələri

---

[14] Majie, Z.; Xintian, Y. Contemporary Culture and International Relations // Cultural Impact on International Relations. Chinese Philosophical Studies, XX the Council for Research in Values and Philosophy, 2002, p. 11; Jingsheng L. US values and Hegemonic Diplomacy International observation. Feb. 2001, pp.18-36; Yaqing Q. National Identity, Strategic Culture and Security Interests, p.211; Suyuan S. Collective identity and international politics in the book edited by Yu Xintian Cultural factors in İR, p.67-76

[15] Hofstede G. Cultures and Organizations: Software of the mind/Hofstede G., Hofstede I., Minkov M., M.Bond, London McCraw-Hill.p. 576

[16] Wendt A. Anarchy in what states make of it: The social construction of Power Politics, International Organization, Vol.46, No.2, Spring 1992, p.187; Onuf N. Constructivism: A User’s Manual Chapter 3 pp.157-183 Kubalkova V., Onuf N., Kowert P. (Eds.). International Relations in a Constructed World. Armonk, N.Y.: M.E. Sharp, 2015, p.232; Hopf T. Social Construction of International Politics: Identities and Foreign Politics, Moscow, 2002 Cornell University Press, p. 299; Валлерстайн И. Конструирование народа: раса, нация, этническая группа, Балибар Э., Валлерстайн И. Раса, нация

praktiki tətbiqə yaxınlaşdırmaq məqsədi daşıyan sistemlilik və obyektivlik prinsiplərindən istifadə olunmuşdur. Müdafiəyə çıxarılan əsas müddəaları əsaslandırmaq və dürüstlüyünü yoxlamaq üçün müəllif tərəfindən ümumtanınmış konsepsiyaların tədqiqi və təhlili aparılmışdır ki, bunlar da əsas müddəaları tamamlamış və həmçinin hazırkı dissertasiya işinin əhəmiyyətini əsaslandırmağa kömək etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qismində milli mədəniyyətin Azərbaycanın XXI əsrdə beynəlxalq münasibətlərinə təsir prosesi çıxış edir.

Tədqiqatın predmetini isə xarici siyasət üzrə qarşılıqlı münasibətlərin amili kimi və dövlətin beynəlxalq arenada hərəkətlərinin determinantı kimi Azərbaycan milli mədəniyyəti təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Milli mədəniyyətin dövlətin xarici siyasətinin determinantlarına olan təsirinin mövcud konseptual modellərinin əsas məqsədi Azərbaycanın beynəlxalq münasibətlərinin inkişafı prosesində milli mədəniyyətin rolunun və yerinin təhlil edilməsidir.

Tədqiqatın nəzəri məqsədi Azərbaycanın beynəlxalq münasibətlərinin inkişafı prosesində milli mədəniyyətin rolunun və yerinin təyin edilməsidir.

Praktiki məqsəd xarici siyasətdə prioritetlərin və maraqların formalaşması prosesinə təsir göstərən milli mədəniyyətin strukturunu təhlil etməkdən ibarətdir.

Göstərilən məqsədlərə nail olmaq üçün aşağıdakı əsas vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

1. dövlətin xarici siyasətinin formalaşmasına təsir edən əsas amilləri qruplaşdırmaq;
2. Azərbaycan Respublikasının xarici siyasət kursunun və prioritetlərin müəyyənləşməsində mədəniyyət komponentlərinin rolunu aşkarlamaq;
3. mədəniyyətin Azərbaycan Respublikasının xarici siyasətinə təsirinin əsas modellərini və onların əhəmiyyətini təhlil etmək;
4. tədqiq edilmiş nəzəriyyələr və müxtəlif konsepsiyalar əsasında milli mədəniyyətin əhəmiyyətini təyin etmək;

5. milli mədəniyyətin əsas elementlərini göstərmək;
6. Azərbaycan Respublikası üçün milli mədəniyyətin ölçüsünü aşkarlamaq (Q.Hofstede və M.Minkovun konsepsiyası əsasında);
7. beynəlxalq arenada Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin və müsbət obrazının formalaşmasına mədəniyyətin və onun elementlərinin təsirini araşdırmaq;
8. beynəlxalq səviyyədə milli mədəniyyətin inkişafı sahəsində hökumətin fəaliyyətini təhlil etmək;
9. Azərbaycan Respublikasının mədəniyyət amili və onunla bağlı xarici siyasət hərəkətləri əsasında milli rolun formalaşmasını müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqatın nəzəri və metodoloji əsasını aşağıdakılar təşkil edir: sosial-konstruktiv yanaşma, onun əsasında milli mədəniyyət dəyərləri hər hansı predmetin, prosesin, yaxud beynəlxalq münasibətlərdəki təzahürün vacibliyini və əhəmiyyətini təyin edir (A.Vendt, R.Cekson, Q.Sorensen, N.Onuf); determinizm prinsipi - əsas amilləri aşkarlamağa və dövlətin xarici siyasətinin başlıca determinantlarını nəzərdən keçirməyə imkan verir (F.Brayar və M.Cəlili); sistemlilik prinsipi - milli mədəniyyətin əsas komponenti milli ideyanı, ideologiyanı, eyniliyi, dövlətin hərəkətlərini və dünya arenasında imicini şərtləndirir və əlaqələndirir.

Tədqiqatın metodologiyasını təşkil etmişlər: empirik metodlar - Azərbaycan Respublikasının milli mədəniyyət göstəricilərinin əsas indekslərinin hesablanması məqsədilə aparılmış sosioloji sorğu (Q.Hofstede və M.Minkovun sual kitabçaları əsasında tərtib edilmişdir), onun statistik göstəriciləri xüsusi SPSS (Statistical Package for the Social Sciences) proqramı ilə emal edilmişdir; ekspert qiymətlərinin təhlili (Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları), nəticələr statistik Tableau proqramı tərəfindən emal və təqdim edilmişdir; Bakıda aparılmış ən iri beynəlxalq miqyaslı tədbirlərin ivent təhlili;

komparativ metod - Azərbaycan Respublikasının milli mədəniyyət göstəriciləri indekslərinin qiymətlərini Q.Hofstedenin konsepsiyası əsasında digər ölkələrlə müqayisə etməyə imkan verən metod;

sistem-funksional metod – xarici siyasətə qarşılıqlı əlaqəli elementlərdən ibarət fəal və bütöv proses kimi baxan metod;

struktur-funksional metod - milli mədəniyyət modelini və onun strukturlarını beynəlxalq münasibətlərin inkişafında təqdim etməyə imkan vermişdir;

tədqiqatda təsvir, sintez, ümumiləşdirmə, deduksiya və induksiya ümumelmi nəzəri metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** öz ifadəsini onda tapır ki, Azərbaycan Respublikasının elmi praktikasında ilk dəfə olaraq:

- dövlətin xarici siyasətini determinə edən əsas dəyişənlərin təsiri formulu işlənilmişdir;
- Q.Hofstede və M.Minkovun konsepsiyası əsasında müxtəlif dövlətlərin milli mədəniyyətinin ölçüləri təhlil edilmişdir və sosioloji sorğu nəticəsində alınmış məlumatlar əsasında Azərbaycan Respublikası üçün dəyərlərin ölçüləri indeksi Q.Hofstede, M.Minkov və M.Bondun 5 əsas ölçüləri üzrə hesablanmışdır;
- beynəlxalq münasibətlərdə Dəyər –İdeya –Eynilik –Milli Maraq –Aktorun beynəlxalq arenada fəaliyyəti və hərəkətləri –Dünya arenasında ölkənin imici və nüfuzu –Milli rol vasitəsilə dövlətin beynəlxalq imicinə milli mədəniyyətin təsirini müəyyənləşdirmək cəhdləri edilmişdir;
- müasir inkişaf mərhələsində Azərbaycan milli mədəniyyətinin dinamikası təhlil edilmişdir;
- mədəniyyətin və beynəlxalq münasibətlərin mövcud əsas modelləri tədqiq edilmişdir;
- XXI əsrdə mədəni proseslərlə əlaqədar olaraq Azərbaycanın xarici siyasətində prioritetlər və dəyişikliklər aşkar edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun müddəalarından, qənaət və tövsiyələrindən milli mədəniyyət fenomeninin daha dərindən təhlili üçün yeni nəzəri məlumatların əldə edilməsində, milli mədəniyyətin xarici siyasətə təsirini araşdıran müxtəlif nəzəriyyə və paradiqmaların tədqiq edilməsində, dövlətin xarici siyasətində milli mədəniyyətin rolunun tədqiq edilməsi üzrə nəzəriyyə və konsepsiyaların inkişaf etdirilməsində, Q.Hofstede və M.Minkovun konsepsiyası əsasında Azərbaycan milli mədəniyyətinin dəyərlərinin ölçülməsi üçün indekslərin mövcudluğunda olan

boşluqların doldurulmasında istifadə oluna bilər.

Dissertasiyanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, dissertasiyanın məzmunu, mədəniyyətin beynəlxalq münasibətlərə təsir modellərinin təhlili, dövlətin xarici siyasətinin əsas determinantlarının formulu, Azərbaycan Respublikası milli mədəniyyət dəyərlərinin ölçülərinin alınmış indeksləri və aparılmış müsahibələrin nəticələri dövlətin xarici siyasət reaksiya və hərəkətlərinin proqnozlaşdırılmasında və təhlilində, onun milli mədəniyyətinin araşdırılmasında və xarici siyasətin təhlilində istifadə edilə bilər. Həmçinin, dissertasiya materialı sosiologiya, politologiya, kulturologiya və beynəlxalq münasibətlər nəzəriyyəsi üzrə tədris kurslarının hazırlanması üçün müvafiqdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya tədqiqatının müdafiəyə çıxarılan əsas müddəaları aşağıdakılardır:

1. Milli mədəniyyət dövlətin milli maraqlarının formalaşmasına təsir edən determinantlardan biridir. Milli maraq isə dövlətin xarici siyasətində prioriteti müəyyən edir.

2. Milli mədəniyyətin dəyərləri milli ideya və identiklikdə təcəssüm edir, bunlar dövlətin xarici siyasətdəki hərəkətlərində və fəaliyyətində öz əksini tapır. Aktorun beynəlxalq arenada fəaliyyəti və hərəkətləri onun imicini formalaşdırır və nüfuzunu möhkəmləndirir. Milli mədəniyyət dünya arenasında dövlətin imicinin formalaşdırılmasında əhəmiyyət kəsb edir. Azərbaycan milli mədəniyyəti ölkənin beynəlxalq ictimaiyyətin nəzərində imicinin təsdiq edilməsi üçün zəruri ehtiyatlar baxımından potensiala malikdir. Ölkəmizin cazibədar mədəni-tarixi obrazının formalaşması və onun beynəlxalq nüfuzunun gücləndirilməsi Azərbaycanın imicinin mövqecə yüksəlməsinin nəticəsi ola bilər.

3. Q.Hofstede və M.Minkovun konsepsiyası əsasında Azərbaycanın milli mədəniyyətinin dəyər göstəriciləri indeksləri Azərbaycanın milli mədəniyyətini “ölçməyə” kömək edir.

4. Ölkəmizin mədəniyyətində baş verən hadisələr dövlətin beynəlxalq arenada xarici siyasət fəaliyyətinə təsir edir.

**Aprobasiya və tətbiqi.** Dissertasiya Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunda müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Təqdim olunan işin

əsas nəticələri Azərbaycan Respublikasında və xarici ölkələrdə keçirilən üç beynəlxalq konfransda dərc edilmişdir. Dissertasiyanın məzmunu həmçinin Azərbaycan Respublikası AAK-ın tövsiyə etdiyi elmi jurnallarda yeddi məqalədə dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi giriş, üç fəsil, altı paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və iki əlavədən ibarətdir.

Giriş 20057, I fəsil 86797, II fəsil 38575, III fəsil 51910, Nəticə 11860, bütövlükdə, tədqiqat işinin həcmi 236859 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiq olunan mövzunun aktuallığı əsaslandırılır, problemin elmi araşdırılma dərəcəsi təhlil edilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, həmçinin metodları müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəalar təqdim edilir, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti açıqlanır.

Dissertasiyanın I fəslində - **"Dövlətin beynəlxalq münasibətlərində milli mədəniyyətin yeri və rolu"**nda milli mədəniyyət anlayışı, onun əsas tərifləri araşdırılıb. Həmçinin, milli mədəniyyətin mühitin xarici siyasətinin formalaşması və dövlətin beynəlxalq münasibətlərinin əsas istiqamətləri strukturunda rolu göstərilmişdir.

**Birinci paraqrafda** - "**Beynəlxalq münasibətlər elmində mədəniyyət fenomeni: mədəniyyətin dövlətin beynəlxalq münasibətlərinə təsir modelləri**"ndə "mədəniyyət" anlayışına marginal (əhəmiyyətsiz) mənada toxunulduğu beynəlxalq münasibətlərin mövcud konsepsiyaları təhlil edilmişdir. Bu paraqrafda mədəniyyətin aktorun xarici siyasət fəaliyyətinə hansı şəkildə təsir göstərdiyi məsələsi qaldırılır və ona görə də milli mədəniyyətin əsas tərkib hissəsi – dəyərlər nəzərdən keçirilir. Bundan başqa, mədəniyyətin beynəlxalq münasibətlərdəki roluna müxtəlif

aspektlərdən baxan əsas təsir modelləri fərqləndirilir. Bu modellər mədəniyyətin beynəlxalq münasibətlərə təsirini nəzərdən keçirən elmi konsepsiya və nəzəriyyələrin təsiri altında formalaşmışdır.

Model 1. "Mədəniyyət maddi həyat üçün əsas kimi". Bu model Amerika alimi, ABŞ Milli Elmlər Akademiyasının fəxri üzvü L.Harrisonun "Kim tərəqqi edir? Mədəni dəyərlər iqtisadi və siyasi uğuru necə formalaşdırır?" kitabında ifadə etdiyi konsepsiyaya əsaslanmışdır[17]. Adı çəkilən model dövlətin milli mədəniyyətinin milli uğur qazanılması dərəcəsinə təsirini nəzərdən keçirir. Milli mədəniyyət və milli nailiyyətlər arasında başlıca əlaqə dövlətin və xalqın iqtisadi taleyinin müəyyənləşməsində əhəmiyyətli rol oynayır və beləliklə, beynəlxalq münasibətlərdə onların statusuna və roluna təsir edir.

Model 2. "Mədəniyyət koqnitiv süzgəc kimi". Bu model Amerika iqtisadçısı və siyasət filosofu T.Souellin "İrq və mədəniyyət: Dünyagörüşü" (1994) kitabı əsasında işlənilmişdir. Model mədəniyyətin əhəmiyyətini qərar qəbul edən liderin müxtəlif mədəni təsəvvürlərinin koqnitiv prizması vasitəsilə təyin edir[18].

Model 3. "Mədəniyyət sosial və iqtisadi quruluşun göstəricisi kimi". Bu model F.Fukuyamanın "Trast (İnam): Sosial xeyirxahlar və inkişafa aparan yol" kitabında əks olunmuş ideya ilə ərsəyə gəlmişdir. Bu modelə əsasən, mədəniyyət dövlətin iqtisadi uğurunun təyinində başlıca, dominant rol oynayır. Bu modelə görə, iqtisadi fəaliyyət müəyyən mədəni xarakteristika və xüsusiyyətlərin təsiri nəticəsində formalaşır, insanın davranışından asılıdır və siyasi aktorların mədəni xüsusiyyətləri kontekstində araşdırılmalıdır[19].

Model 4. "Mədəniyyət münaqişələrin əsas mənbəyi kimi". Bu model məşhur Amerika sosioloqu, politoloqu və Harvard Universitetinin professoru, sivilizasiyaların etnomədəni bölünməsi konsepsiyasının müəllifi S.Hantinqtonun "Sivilizasiyaların toqquşması

---

[17] Harrison L. Who Prospers: How Cultural Values Shape Economic and Political Success Paperback July 21, 1993, p.280

[18] Sowell Th. Race and Culture: A World View 1995, Basic books division of Harper Collins Publishers p. 352

[19] Фукуяма Ф. Доверие. Социальные добродетели и путь к процветанию Москва: ООО " Издательство АСТ", 2004, 736 с.

və dünya düzəninin dəyişməsi” adlı kitabının işıq üzü görməsindən sonra işlənilmişdir. S.Hantinqtonun “Sivilizasiyaların toqquşması” kitabında irəli sürdüyü əsas mülahizə yeni müharibədən sonrakı dövrdə münaqişələrin fundamental mənbəyinin müxtəlif sivilizasiyaların xalqları və qrupları arasında olacağı barədə iddiasıdır. S.Hantinqton 8 əsas sivilizasiya ayırır: Qərb, Konfusian, Yapon, İslam, Hind, Slavyan-Ortodoksal, Latın Amerikası və Afrika. Bu sivilizasiyalar arasında parçalanma xətti də sonradan gələcək münaqişələrin cəbhə xətti olacaq.

Model 5. “Mədəniyyət beynəlxalq münasibətlərdə proseslərin katalizatoru kimi”. J.Majiyə görə, dünya mədəniyyətlərinin oxşarlığı və bir-birini qarşılıqlı şəkildə tamamlaması dövlətlərin beynəlxalq münasibətlərinin inkişafına böyük və labüd təkan verir[20]. Dünyanın əksər ölkələrində demokratiyanın bərqərar olduğu müasir dövrdə etnosların və dinlərin müxtəlifliyi ona gətirib çıxarır ki, müxtəlif mədəniyyətlər arasında olan fikir ayrılıqları münaqişəyə deyil, dialoqa gətirir.

Yuxarıda sadalanan modellərdən başqa, mədəniyyət və beynəlxalq münasibətlərin qarşılıqlı əlaqələrini təhlil edən daha iki geniş yayılmış və populyar konsepsiya nəzərdən keçirilmişdir: C.Nayın “Yumşaq güc” konsepsiyası və A.Vendtin “Sosial konstruktivizm” konsepsiyası. “Yumşaq güc”ün əsasını məharətlə qurulmuş ritorika, iqtisadi inkişaf və zəngin mədəni resursların mövcudluğu yolu ilə cəlbetmə təşkil edir. Dövlətin müəyyən obrazının təbliğatı çərçivəsində ritorikadan strateji istifadə və ya yeni ritorika və simvolların yaradılması aktora öz “yumşaq güc”ünü müxtəlif üsullarla həyata keçirməyə imkan verir: iqtisadi cəlbetmə yolu ilə - sərmayə; təqaüd proqramları yolu ilə - təhsil; müxtəlif humanitar və qeyri-hökumət təşkilatlarına verilmiş subsidiyalar və sponsorluq yolu ilə - sosial sahənin inkişafı. Konstruktivizmə görə, aktor-dövlət öz diskursu vasitəsilə dövlətin hərəkətlərinə və fəaliyyətinə, onun identikliyinə və imicinin formalaşmasına təsir göstərən konstruktlar yaradır. A.Vendtin fikrincə, mədəniyyətin əhəmiyyətini dövlətin beynəlxalq

[20] Majie, Z.; Xintian, Y. Contemporary Culture and International Relations // Cultural Impact on International Relations. Chinese Philosophical Studies, XX the Council for Research in Values and Philosophy, 2002, p. 11.

münasibətlərində və xarici siyasətində daha adekvat şəkildə məhz konstruktivizm əsaslandıra bilər, çünki konstruktivizm mədəniyyəti və qeyri-maddi konteksti təyinedici və əsaslı hesab edir[21]. Dissertasiyada nəzəri-metodoloji yanaşma qismində məhz sosial konstruktivizmdən istifadə edilmişdir, belə ki, məhz o, mədəniyyəti dövlətin beynəlxalq münasibətlərinə təsir göstərən əsas amil kimi fərqləndirir.

**"Dövlətin xarici siyasətində mədəniyyətin yeri və rolu"** adlanan ikinci paraqrafda xarici siyasətin daxili müstəqil və xarici müstəqil dəyişənlərdən ibarət olan əsas determinantları təqdim edilmiş və şərh olunmuşdur. Daxili müstəqil dəyişənlər aşağıdakıları ehtiva edir: 1.*Fiziki amillərə* dövlətin coğrafi mövqeyi, dövlətin təbii ehtiyatları, demoqrafik vəziyyət aiddir. 2.*Struktur amillər* siyasi institutlar, iqtisadi institutlar, siyasi partiyalar, etnik qruplar və konfessional qrupları əhatə edir. 3.*Mədəni və insan amilləri* mədəniyyət, dəyərlər sistemi, dil, din, ideologiya və digər komponentlərdən ibarətdir[22] .

Bu konsepsiyanın başlıca ideyası - əsas amillərin sıx əlaqəsini və dövlətin xarici siyasətinə onların təsirini göstərməkdir.

Bu sxem aşağıdakı düstur şəklində göstərilmişdir:

$$P \approx \frac{Q + S + C}{M + A + R}$$

Burada, P – dövlətin xarici siyasəti;
Q – geosiyasi amil;
S – struktur amil;
C – mədəniyyət amili;
M - beynəlxalq sistem;
A – digər aktorlar, onların hərəkətləri;
R – ümumi ehtiyatlar.

---

21 Wendt A. Collective Identity Formation and the International State", The American Political Science Review, Vol, 88, No.2 (Jun 1994), pp. 384-396

22 Цыганков П. А. Международные отношения, Москва: "Новая школа", 1996, 320 с.

Bu düsturda əks olunmuş xarici siyasətin formalaşması qaydası və xarici siyasət qərarlarının qəbulu bir sıra amillərlə ifadə olunmuşdur. Onlar şəraitdən, məsələn, hərb, yaxud sülh şəraitindən asılı olaraq müxtəlif cür təsir edirlər. Konkret tarixi-sosial şəraitdən asılı olaraq üstünlük daxili, yaxud xarici amillərə verilir.

Əsas qənaətlər aşağıdakılardır:

- milli mədəniyyət aktorda müəyyən milli xarakter formalaşdırır: təfəkkür cizgiləri, mentalitet, dəyərlər, davranış. Bunlar aktorun hərəkət və davranışına, onun digər aktorlara münasibətində reaksiyasına təsir edir;
- milli mədəniyyət tərəqqi prosesinə təsir göstərmək və dövlətin siyasi, iqtisadi və mədəni liderliyinə əsaslanan milli güc və qüdrətini möhkəmləndirməyə qadirdir;
- milli mədəniyyət həmçinin dövlətin müəyyən imicinin formalaşmasına - müəyyən zaman kəsiyində həmin aktorun yaranmış obrazına təsir göstərir. Dövlətin imici – dövlətin digər aktorlar tərəfindən necə identifikasiya olduğu və qəbul edildiyi göstəricidir.

Dissertasiyanın ikinci fəsli “**Müasir Azərbaycan Respublikasının xarici siyasətində mədəniyyət amilinin xüsusiyyətləri**” adlanır. Burada milli mədəniyyət fenomeninin özünün nəzəri və praktiki aspektləri təhlil edilmişdir.

Bu fəslin ilk “M**illi mədəniyyətin mahiyyətinin təyinində bəzi aspektlər: anlayış və struktur**” 2.1 paraqrafında beynəlxalq politoloq və kulturoloq alimlər birliyi tərəfindən tanınan, milli mədəniyyəti təyin edən bir sıra məşhur konsepsiyalar təqdim edilmişdir, lakin aparıcı nəzəri paradiqma qismində Q.Hofstedenin konsepsiyası təfərrüatı ilə təhlil edilmiş və şərh olunmuşdur.

Bu konsepsiya əsasında həm Azərbaycan, həm də digər ölkələr üçün məqbul olan milli mədəniyyətin struktur dəyişikliklərinin ölçülməsi və araşdırılması üzrə nəzəri aspektlər öyrənilmişdir. Milli mədəniyyətin və onun əsas komponentlərinin (ilk öncə mühüm əhəmiyyət kəsb edən dəyərlərin) mahiyyətini aşkarlamaq məqsədilə mövcud nəzəriyyə və konseptual modellər göstərilmişdir. Milli mədəniyyətin dəyərlər indeksinin sonrakı ölçüləri əksər dövlətlərin

indekslərinin ümumdünya məlumat bazasında olan göstəriciləri əsasında sadalanmışdır. Lakin Azərbaycan bu siyahıya daxil edilmədiyindən müəllif tərəfindən elə həmin formullar Q.Hofstede və M.Minkovun istifadə etdikləri statistik araşdırmalar üçün kompüter proqramı əsasında tədqiqat aparılmışdır. Milli mədəniyyətin nəzəri konsepsiya və paradiqmalarından və onun ölçmələrindən Azərbaycan Respublikasının milli mədəniyyətinin ölçmə indekslərinin araşdırılması və aşkarlanması üçün faktoloji baza qismində istifadə edilmişdir.Sonrakı proses və nəticələr növbəti fəsildə nəzərdən keçirilmişdir.

Fəslin növbəti 2.2. paraqrafında - "**Q.Hofstede və M.Minkovun konsepsiyası əsasında Azərbaycan Respublikasının milli mədəniyyət indekslərinin ölçmələrinin təhlili**" paraqrafında sosioloji soğru və məlumatların xüsusi SPSS və Tableau proqramları vasitəsilə emal edildiyi statistik təhlil əsasında Q.Hofstede və M.Minkovun konsepsiyaları üzrə Azərbaycan Respublikasının milli mədəniyyət indekslərinin ölçü göstəricilərinin əsas indikatorları əks olunmuşdur. Q.Hofstedenin konsepsiyası əsasında bütün göstəricilər üzrə məlumatlar ilk dəfə müəllif tərəfindən aşağıdakı düsturlarda təqdim edilmişdir.

PDI – hakimiyyət distansiyası, IDV – individualizm, MAS – mərdlik, UAI – qeyri-müəyyənlikdən qaçmaq arzusu, LTO – oriyentasiyanın uzunmüddətliliyi, IVR – öz arzularına yol vermək:

1. PDI = 35 (m07 – m02) + 25 (m20 – m23) + C (pd)
2. IDV = 35 (m04 – m01) + 35 (m09 – m06) + C (ic)
3. MAS = 35 (m05 – m03) + 35 (m08 – m10) + C (mf)
4. UAI = 40 (m18 - m15) + 25 (m21 – m24) + C (ua)
5. LTO = 40 (m13 – m14) + 25 (m19 – m22) + C (ls)
6. IVR = 35 (m12 – m11) + 40 (m17 – m16) + C (ir)

Aparılmış sosioloji tədqiqat üçün alfa-Kronbax əmsalı hesablanmışdır, bu isə cavablar şkalasında dispersiyanın faizini göstərir. Daxili razılaşmanın etibarlılığının ən geniş yayılmış göstəricisi

– alfa-Kronbax əmsalının təyin edilməsidir.

**Reliability Statistics**

| Cronbach's Alpha | Cronbach's Alpha Based on Standardized Items | N of Items |
|---|---|---|
| .750 | .754 | 28 |

$$\alpha = \left(\frac{k}{k-1}\right)\left(1 - \frac{\sum_{i=1}^{k} \sigma_{y_i}^2}{\sigma_x^2}\right)$$

| | |
|---|---|
| number of items/Qs | 28.00 |
| sum of item variances | 27.04 |
| variance of total scores | 101.31 |
| Cronbach's Alpha | 0.75 |

Alfa-Kronbax əmsalı iki üsulla hesablanmışdır: SPSS proqramında və Microsoft Excel proqramında. Hesablamaların nəticələri 0-dan 1-ə qədər şkala üzrə ölçülür və nəticə 1-ə nə qədər yaxındırsa, tədqiqatın nəticələri də bir o qədər etibarlıdır. Beləliklə, bu əmsalın nəticələri əsasında belə bir qənaətə gəlmək olar ki, milli mədəniyyətin alınmış ölçmə indeksləri etibarlıdır və Q.Hofstede və M.Minkovun tədqiqatlarının standartlarına uyğundur.

**“Müasir mərhələdə milli mədəniyyətin inkişafı sahəsində Azərbaycan Respublikasının dövlət siyasəti”** adlı üçüncü fəsildə milli mədəniyyətin dövlətin beynəlxalq münasibətlətinə təsir sxemi təqdim edilmişdir:

– Milli mədəniyyətin dəyərləri → Milli İdeya →İdentikilik →Milli mənafe →Aktorun beynəlxalq arenada fəaliyyət və hərəkətləri → Ölkənin dünya arenasında imici və nüfuzu →Beynəlxalq aləmdə milli rol konsepsiyasının formalaşdırılması.

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev təkcə “azərbaycançılıq” milli ideyasının deyil, həmçinin müasir Azərbaycan cəmiyyətinin identikliyi və ideologiyasının formalaşdırılmasının konseptual əsaslarını qoymuşdur. Milli eynilik və milli mənafe ideyasının sonrakı inkişafı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi ilə davam etmişdir. 2006-cı ildən etibarən Azərbaycan Respublikası Mədəniyyət və Turizm

Nazirliyi Xarici İşlər Nazirliyi ilə birlikdə mədəni diplomatiyanın həyatda tətbiq edilməsi üçün leqal baza olmuşdur. Bu, cəmiyyətin çağdaş müasirləşməsi şəraitində ölkənin və onun milli mədəniyyətinin adekvat yerləşməsi məqsədilə yaradılmış siyasətin bir hissəsidir. Bundan başqa, birinci vitse-prezident, Birinci xanım Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun fəaliyyətində milli mədəniyyətin inkişaf nəticələri izlənilir. Mehriban xanım Əliyeva öz kitabında ölkəmizin beynəlxalq səviyyədə imicini və nüfuzunu formalaşdıran Azərbaycan Respublikasının inkişafının əsas resursu və aparıcı faktoru kimi milli mədəniyyət amilini göstərir[23].

III fəslin birinci – "**Milli mədəniyyətin Azərbaycanın beynəlxalq arenadakı imic və statusuna təsiri**" paraqrafında milli rolun təsirinə məruz qalan və onun məqsədi ilə təyin edilən xarici siyasət üzərində milli mədəniyyətin determinə edilmiş rolu vurğulanır[24].

Azərbaycan öz tarixi-siyasi inkişafında artıq bir neçə milli rol mənimsəmişdir. SSRİ dövründə Azərbaycanın milli rolu "satellit-dövlət" idi. Bu rol hətta SSRİ süqut etdikdən və dövlət müstəqilliyi bərpa edildikdən sonra da qalmışdı. Bütün bunlar 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə gələnə qədər müşahidə olunmuşdur. Liderin güclü təsiri "satellit" milli rolunu kökündən dəyişdirmişdir. "balanslı, multi istiqamətli siyasət"in vaxtında seçilməsi yeni rolun – "balans edən dövlət"in qurulması əsas oldu. Artıq Azərbaycan müstəqil dövlət olaraq "Azərbaycançılıq" milli ideyası və ideologiyası ilə özünün milli rol konsepsiyası əsasında "balans edən dövlət" kimi formalaşdı. Bununla belə, bu, dövlətin beynəlxalq münasibətlər sistemində oynadığı yeganə rol deyildir. Azərbaycan bir çox beynəlxalq təşkilatların və hərbi-siyasi ittifaqların üzvüdür, "dövlət-blokun/ittifaqın üzvü"dür (BMT, ATƏT, Avropa

---

[23] Алиева Мехрибан "Культура и культурные шедевры Азербайджана - уникальное послание будущим поколениям", под редакцией С. Мамедалиева, Баку: "Çinar Çap", 2009, 798 с.

[24] Holsti K. J. National Role Conceptions in the Study of Foreign Policy / K. J. Holsti // International Studies Quarterly. – 1970. – Vol. 14, No. 3. – pp. 233–309

Şurası), eyni zamanda Azərbaycan artıq “dövlət-ittifaqın lideri” rolunu oynadığı ittifaqların yaradılmasına təkan verir (GUÖAM, TÜRKSOY).

Müasir mərhələdə Azərbaycan Respublikasının xarici siyasətində milli imic konsepsiyasının mühümlüyü xüsusi qeyd olunur. Ölkəmizin müsbət imicinin formalaşmasında əsas alətlər milli eynilik, milli rol və brendinqdir. “Yumşaq güc” (C.Nay) və publik diplomatiya alətlərini tətbiq edən Azərbaycan ölkənin xaricdə pozitiv imicini formalaşdıran yeni brendini yaradır. Ermənistanın işğal etdiyi torpaqları azad edən, möhtəşəm qələbə qazanan Azərbaycan beynəlxalq aləmdə öz statusunu möhkəmləndirə bilmişdir. Mədəni miqyaslı ən mühüm nəticələrdən biri Şuşa şəhərinin Azərbaycan Respublikasının mədəniyyət paytaxtı elan edilməsidir. Hökumətin sonrakı fəaliyyəti dövlətin mədəni potensialının inkişafına və bu regionun bütün dövlətin mədəni inkişafı üçün strateji əhəmiyyətinə əsaslanacaq.

Üçüncü fəslin ikinci paraqrafı **“Milli mədəniyyətin inkişafı və beynəlxalq birliyə çıxarılması sahəsində Azərbaycan Respublikası hökumətinin fəaliyyəti”** adlanır. Burada milli mədəniyyətin irəli getməsi məqsədilə hökumətin və dövlət başçısının fəaliyyətinin əsas istiqamətləri təhlil edilir. Bundan başqa, ölkə Prezidenti İlham Əliyev başda olmaqla, Azərbaycan Respublikasının mədəniyyət siyasətinin başlıca prioritetləri araşdırılmışdır. Beynəlxalq arenada beynəlxalq münasibətlərin aktoru kimi dövlətin xarici siyasət fəaliyyətində və hərəkətlərində milli mədəniyyətin təzahürü və əsas təsiri göstərilmişdir.

Milli mədəniyyət üç “D”nin – demokratikləşmə, desentralizasiya və demonopolizasiyanın təsirinə, həmçinin dini, tarixi, coğrafi və əxlaqi amillərin məruz qalmışdır. Bu proseslər dövlətin xarici siyasət fəaliyyətinin və Azərbaycan Respublikasının mədəniyyət siyasətini işləyib-hazırlayan və təsir göstərən dövlət struktur və idarələrinin aktivliyinin nəticəsidir. Bunu Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları ilə keçirdiyimiz görüş və söhbətlərin nəticələri, habelə dissertasiyanın Əlavəsində öz əksini tapan məlumatlar sübut edir. Bütün bunlar Azərbaycan Respublikasının milli mədəniyyətinin irəliləməsi və onun beynəlxalq birlikdə təqdim olunması məsələlələrində hökumətin dəstəyinin necə böyük rol oynadığını

göstərir. Azərbayacn Respublikası mədəniyyət siyasətinin əsas istiqamətləri innovativ informasiya sisteminin inkişafı; elm və incəsənətin inkişafı; mədəni irsin qorunması; kreativ modernləşmədir.

Dissertasiya işinin **nəticə** hissəsində tədqiqatın bütün 3 fəslində ifadə olunmuş əsas müddəalar ümumiləşdirilir. Dövlətin milli mədəniyyəti milli eynilikdən məharətlə istifadə etmək bacarığı sayəsində aktora xarici siyasət seçimini genişləndirməkdə kömək edir. Həmçinin, milli mədəniyyət milli maraqların formalaşması işində aktorun hərəkətlərinə təsir göstərərək, dövlətin xarici siyasətində prioritetlərin müəyyənləşdirilməsini təyin edir. Milli mədəniyyətin dəyərlər indeksinin ölçmələrini digər dövlətlərlə müqayisədə nəzərdən keçirmək daha yaxşı və səmərəlidir. Azərbaycan Respublikasının xarici siyasəti, beynəlxalq arenada nüfuzu və müsbət beynəlxalq obrazı Azərbaycan hökumətinin qətiyyətli və gərgin zəhmətinin və səylərinin nəticəsidir. Eyni zamanda, ölkənin formalaşmış imici başqa ölkələrlə iqtisadi, siyasi və digər sahələrdə qarşılıqlı münasibətlərinin möhkəmlənməsinə kömək edir. Milli dəyərlər, milli ideya və identiklik – Azərbaycanın xarici siyasətinə əsaslı təsir göstərən mədəniyyətin başlıca elementləridir. Mədəniyyət sahəsində beynəlxalq miqyaslı hadisələr Azərbaycanın imicini xeyli yüksəltmiş, identiklikdə və milli mədəniyyətin bəzi dəyərlərində dəyişikliklərə səbəb olmuşdur.

Dissertasiyada həmçinin işin əsas müddəalarının metodoloji əsaslandırılması üçün məlumatların toplanması və təhlili üçün aparılmış tədqiqatların ətraflı nəticələri olan iki əlavə də təqdim edilmişdir.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Культура как фактор, воздействующий на формирование внешней политики государства, Məqalə, “Elmi əsərlər” beynəlxalq elmi-nəzəri jurnal, “Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Informasiya və Nəşriyyat şöbəsinin” nəşri, Bakı 2013, №11, 5 səhifə, 7785 işarə sayı, Səh.107- 111

2. Измерения национальной культуры государства по методологии Г.Хофстеде, Məqalə, “Geostrategiya” aylıq ictimai-siyasi, elmi-populyar jurnalı, “Azərbaycan”, Bakı yanvar-fevral 2014 №1 (19)4 səhifə, 11173 işarə sayı, Səh. 63–66

3. Конструктивистская концепция во внешней политике , Məqalə “Гилея” научный вестник, Украинская академия наук, Всеукраинская общественная организация, “Видавництво”, Киев, Украина, выпуск, 2014 82, № 3, 4 səhifə, 10671 işarə sayı Səh. 416–419

4. Динамика культуры - как целостный процесс. Məqalə “Sivilizasiya” elmi-nəzəri jurnalı, “Bakı Avrasiya Universitetinin” nəşri, Bakı, 2014 №5, 7 səhifə, 9278 işarə sayı, Səh. 154–160

5. Национальная культура Азербайджанской Республики во внешнеполитических связях, Məqalə “Sivilizasiya” elmi-nəzəri jurnalı, “Bakı Avrasiya Universitetinin” nəşri, Bakı 2015, №1, 7 səhifə, 9430 işarə sayı, Səh. 18–24

6. Механизм воздействия культуры на внешнюю политику государства, Məqalə “Коллекция научных статей на тему актуальных проблем философии, культурологии, психологии, педагогики и истории” конференция Национального педагогического университета имени М.П. Драгоманова, кафедра культурологии, Гуманитарный корпус, “Винниця Нилан ЛТД”, Киев 2016, Выпуск 7, 4 səhifə, 6319 işarə sayı, Səh. 35–38

7. Национальная культура – как показатель развития и процветания: деятельность правительства по продвижению национальной культуры Məqalə “Achievements and problems in the field of social sciences in the modern world” International scientific and practical conference: Institute of Philosophy of Azerbaijan National Academy of sciences,” The Republic of Azerbaijan”, Baku, Dekabr, 2018, №14, 3 səhifə, 9676 işarə sayı, Səh. 137-139

8. Анализ измерения индексов национальной культуры Азербайджана, Məqalə, “Geostrategiya” aylıq ictimai-siyasi, elmi-populyar jurnalı, “Azərbaycan”, Bakı, noyabr-dekabr 2018, №06 (48), 4 səhifə, 9831 işarə sayı, Səh. 70-73

9. Как национальная культура влияет на международные отношения государства? Məqalə, Вісник Дніпропетровського університету, Вестник Днепропетровского университета. Серия: философия, социология, политология, Днепропетровск, Украина, 2016, №4, 6 səhifə, 15270 işarə sayı, Səh.9-14

10.Основные инструменты формирования позитивного имиджа Азербайджана // Кооперация науки и общества – путь к модернизации и инновационному развитию, Агентство Международных отношений, Сборник статей подготовлен на основе докладов Международной научно-практической конференции «Системный анализ и синтез моделей научного развития общества», Стерлитамак, Российская Федерация, г. Самара, 14 ноября 2021 г., 3 səhifə 7327 işarə sayı, səh.66-68

Dissertasiyanın müdafiəsi 17 dekabr 2021-ci il saat 16:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD.2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küç. 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 noyabr 2021-ci il tarixində müvafiq ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.11.2021

Kağızın formatı: 60×84 $^{1}/_{16}$

Həcm: 40709

Tiraj: 30